# Türkiyənin İstanbul Universitetində Xocalı soyqırımına həsr olunmuş tədbir

**Tarixin müxtəlif dönəmlərində ermənilər tərəfindən soyqırımına məruz qalan Azərbaycan xalqı növbəti belə bir faciə ilə 1992-ci ilin qarlı qışında Xocalıda üzləşdi. Sovetlər imperiyasının süqutu ilə yaranan mürəkkəb tarixi və ictimai-siyasi şəraitdə dövlət müstəqilliyini yenicə qazanan Azərbaycanın üzləşdiyi ərazi itkisi ilə yanaşı, əsrin ən dəhşətli faciələrindən birini yaşaması ölkənin yeni tarixinə qara hərflərlə yazıldı.**

Xocalı şəhərində 1992-ci ilin fevral günlərində üç min dinc sakin yaşayırdı. 366-cı motoatıcı alayın dəstəyindən istifadə edən erməni silahlı qüvvələri fevralın 25-dən 26-na keçən gecə dinc sakinlərə qarşı qətliam törətdilər, dünyada analoqu olmayan cinayətə əl atdılar, bu şəhəri xarabalığa döndərdilər. Xocalı faciəsində 613 nəfər qəddarcasına qətlə yetirildi, yüzlərlə sakin yandırıldı, əsir götürüldü və itkin düşdü. Həmin gecə Xocalı sakinləri məhz azərbaycanlı olduqlarına və bu etnik mənsubiyyətlərə görə soyqırımına məruz qaldılar. Beynəlxalq hüquq və normalara görə həmin hadisə soyqırımı şərtlərinə cavab verir.

Dünyanın bir çox ölkələrində olduğu kimi, qardaş Türkiyənin İstanbul Universitetində də Xocalı soyqırımının 27-ci ildönümü ilə bağlı geniş, yaddaqalan tədbir keçirildi. Anım mərasimi Rəşid Mustafazadənin rəhbərlik etdiyi İstanbul Universiteti, Azərbaycan Kültür və "Dayanışma topluluğu", "Palmali" qrupu və "Yeniçağ" media qrupunun birgə təşkilatçılığı ilə təşkil edilmişdi.

Tədbirdən öncə Xocalıda şəhid olmuş insanların ruhu bir dəqiqəlik sükutla yad olundu.

Yığıncaq keçirilən salonda Xocalı soyqırımını əks etdirən kitab, jurnallar diqqəti cəlb edir, hiss olunurdu ki, tədbirə qatılanlar bu dəhşətli faciəni qəlblərində yaşadırlar.

Aparıcılar bəşəriyyətə, insanlığa qarşı törədilmiş erməni vəhşiliyindən söhbət açdılar, vurğuladılar ki, qəddarlığına görə Xocalı soyqırımı ən dəhşətli kütləvi terror hadisəsi kimi tarixə düşdü.

Universitetdə keçirilən anım mərasiminin əsas məqsədi Xocalı soyqırımı ilə bağlı həqiqətləri dünya xalqlarına çatdırmaq, Azərbaycanın ədalətli mövqeyini müdafiə etməkdən ibarət idi.

Xocalı faciəsinin 27-ci ildönümü ilə bağlı keçirilən tədbirdə "Palmali" şirkətinin sahibi Mübariz Mənsimov, Azərbaycanın millət vəkili Sona Alıyeva, İstanbul Universitetinin rektor müavini Sedat Murat, MNP millət vəkili Saffet Sancaqlı, Türkiyənin məşhur sənət adamı Hülya Avşar, müğənni Ahmet Şəfaq, Türkiyədə Azərbaycanı təmsil edən aktrisa Məlahət Abbasova çıxış etdilər.

Bildirildi ki, Ermənistanın Azərbaycanın Dağlıq Qarabağ bölgəsini işğal etməsi nəticəsində digər yaşayış məntəqələri kimi, Xocalı şəhəri də erməni silahlı birləşmələri tərəfindən dağıdılıb. Şəhəri tərk etməyə çalışan mülki əhali erməni daşnakları tərəfindən pusquya salınıb. Erməni silahlıları qadın, qoca və körpə uşaqlara qarşı vəhşilik edərək, onları amansızlıqla şaxtalı qış gecəsində qətlə yetiriblər.

İyirminci yüzilliyin ən qəddar və amansız cinayətlərindən biri olan Xocalı faciəsi bəşər tarixində dəhşətli soyqırımı idi. Erməni cəlladları tərəfindən törədilən Xocalı soyqırımı bəşər övladlarına qarşı, azəri türklərinə qarşı ağıla gətirilməsi mümkün olmayan ən qanlı cinayət idi. XX əsrin ən dəhşətli faciələrindən hesab olunan Xatın, Xirosima, Naqasaki, Sonqmi kimi insan fəlakətləri və kütləvi insan qırğınları sırasına 1992-ci il fevralın 26-da törədilmiş Xocalı soyqırımı da əlavə edildi.

Xocalı faciəsi Azərbaycan xalqının qan yaddaşına həkk olan acı bir kədər, dərin bir üzüntüdür. Xocalı faciəsini Azərbaycan xalqının qan yaddaşı olduğunu dəfələrlə bəyan edən ümummilli lider Heydər Əliyev hadisələrə beynəlxalq müstəvidə əsl hüquqi-siyasi qiymət verilməsinin zəruriliyini vurğulamış, Xocalı soyqırımının dünya ictimaiyyətinə çatdırılmasına xüsusi səy göstərmişdir.

Biz tədbirdə iştirak edən İstanbul Universitetinin magistrlərindən Aytac Aslanlı, Fəridə Nəcəfquliyeva, hüquq fakültəsinin IV kurs tələbəsi Səma Aslanova və başqaları ilə söhbət edərkən onlar Xocalı soyqırımı ilə bağlı belə bir tədbirin keçirilməsinə görə İstanbul Universitetinin rəhbərliyinə dərin minnətdarlıqlarını bildirdilər. Qeyd etdilər ki, Xocalı soyqırımı dünya xalqlarının tarixinə, insanlığın tarixinə kütləvi terror aktı kimi daxil olmuşdur. Faktlar göstərir ki, erməni daşnakları tarixən türk xalqlarına qarşı düşmənçilik mövqeyində dayanmışlar. Ermənilər qulaqlarında sırğa etməlidir ki, onların "böyük Ermənistan", "dənizdən-dənizə" xülyası heç vaxt reallaşmayacaqdır.

Xocalı soyqırımına həsr olunmuş tədbirdə 200 könüllü azərbaycanlı və türk tələbə gənclər iştirak edirdi.










**Esmira ASLANOVA,**
**Jurnalist.**